Dərman vasitəsinin istifadəsi üzrə təlimat ( xəstələr üçün )

# Vitamin B Kompleks

# Vitamin B Complex

**Vitamin B Complex** 2ml inyeksiya üçün məhlul

**Tərkibi**
*Təsiredici maddə:* 2ml (1 ampul) məhlulun tərkibində: 20mq B1 vitamini, 2mq B2 vitamini, 2mq B6 vitamini, 30mq nikotinamid, 1 mq natrium pantotenat vardır.
*Köməkçi maddəlr:* dinatrium EDTA, polisorbat 80, inyeksiya üçün su.

**Farmakoterapevtik qrupu**
Vitaminlər. Vitaminəbənzər vasitələr.
**ATC kodu:** A11EA

**Farmakoloji xüsusiyyətləri**
Preparatın farmokoloji təsiri tərkibində olan vitaminlərin bioloji effektləri ilə əlaqədardır.
Vit B1 (tiamin-hidroxlorid) – karbohidrat, zülal, piy mübadiləsində zəruri rol oynayır, həmçinin sinapslarda sinirlərin qıcıqlanma prosesinlərində aktiv iştirak edir; anemik miokardiodistrofiya zamanı miokardiositlərin metobolizmi və onların yığılma funksiyasını yaxşılaşdırır. İnsan orqanizmində fosforlaşma prosesləri nəticəsində Vit B1 çoxsaylı fermenttativ reaksiyaların kofermeni olan kokarbaksilazaya çevrilir.
Vit B2 (riboflavi natrium fosfat) – toxuma tənəffüsünün və görmə həssaslığının katalizatorudur. Riboflavin oksidləşmə-reduksiya proseslərini tənzim edərək zülal. Piy və karbohidrat mübadiləsində iştirak edir. DNT-nin formalaşmasında əsas rol oynayır, hemoqlobinin sintezində iştirak edir, toxumaların reqenerasiya proseslərini ( həmçinin dəri hüceyrələrinin) və hüceyrələrdə trofik pozğunluqları korreksiya edir.
Vit B6 (piridoksin hidroxlorid) – maddələr mübadiləsində vacib rol oynayır, mərkəzi və periferik sinir sisteminin normalfunksiyasını təmin edir. Fosforlil formasında sinir toxumalarında fəaliyyət göstərən əsas fermentlərin kofermentidir. Neyromediatorların (dopamin, noradrenalin, adrenalin, histamin QAYT) sintezində iştirak edir, lipid mübadiləsini normallaşdırır.
Nikotinamid hüceyrələrdə oksidləşmə-reduksiya proseslərində iştirak edən I (NAD) və II (NADF) kodehidroqenazanın vacib komponentidir. Məhlulların neytrl

reaksiyası ilə əlaqədar olaraq, nikatinamid inyeksiya zamanı yerli reaksiya törətmir. Nikotinamid yüksək damargenişləndirici təsir göstərir və onun istifadəsində dəri örtüklərinin qızartısı və qanın beyinə axması hissi müşahidə edilmir (nikotin turşusunun istifadəsindən fərqli olaraq). Nikotinamid piylərin, proteinlərin, aminturşuların, purinlərin metobolizmində, həmçinin toxuma tənəffüsündə və qlikoqenolizdə iştirak edir. Pellaqra əleyhinə təsirə malikdir.
Natrium pantotenat hüceyrə energetik , iltihab əleyhinə, membranoprotektor, termogenik təsir göstərir; antiaterosklerotik təsirə malikdir, qanın lipid tərkibini normallaşdırır, miokardın metabolizmini və qanın reoloji xüsusiyyətlərini yaxşılaşdırır; bağırsaq divarlarını möhkəmlədir; böyrəküstü və cinsiyyət vəzifələrinin funksiyasını tənzimləyir; podaqra və göbələk əleyhinə təsir göstərir; dəri, dırnaq və saç strukturunu yaxşılaşdırır.

**İstifadəsinə göstərişlər**

- B qrup vitaminlərin çatışmazlığı ilə əlaqədar hipo- və avitaminozlar;
- Sinir sisteminin müxtəlif genezli xəstəliklərinin simptomatik müalicəsi: periferik nevrit və polinevritlər, nevralgiya, periferik parez və iflic, raikulit, lümbaqo, pleksitlər, qabırğa arası nevralgiya, üçlü sinirin nevralgiyası, üz sinirinin parezi, yan amiotrofik skleroz, uşaq serebral iflici, periferik sinirlərin travması;
- Ateroskleroz, ÜİX, qan dövranının xroniki çatışmazlığı, hepatit, şəkərli diabet (kombinəolunmuş müalicənin tərkibində);
- İzoniazid sırasından olan vərəm əleyhinə prparatların və antibiotiklərin istifadəsində;
- Oynaq xəstəlikləri: artrit, osteoartroz, revmatoid artrit;
- Oftalmologiyada (hemeralopiya, konyuktivit, keratit, irit, katarakta, buynuz qişasının xorası).

**Əks göstərişlər**

- Preparatın komponentlərinə qarşı hiperhəssaslıq;
- Xroniki ürək çatışmazlığı (ağır və kəskin formaları).

**Xüsusi göstərişlər**

Preparatın tərkibində olan riboflavin sidiyi sarı rəngə boyaya bilər.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**

Benzinpensillin və oksasillin ilə, makrolidlərlə, xloramfenikol ilə, Vit B12 və Vit C ilə birgə uyuşmazlığına görə bir şprisdə qarışdırmaq olmaz.
Preparat bəzi adrenoloklatorların və adrenolitiklərin antihipertenziv effektini və barbituratların hiptonik təsirini azalda bilər. Xlorpromazin vit B12-nin

sekresiyasını artırır, prbenesid Vit Vit B12-nin tubulyar ekskresiyasını tormozlayaraq Vit B2-nin ekskresiyasını azaldır. Vit B6 levadopanın antiparkinsonik təsirini zəiflədir. Vit B6 ilə birgə oral kontraseptivlərin, izoniazidin, pensillaminin, sikloserinin istifadəsində qanda vitamin konsentrasiyası azalır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Preparatın istifadəsi yalnız müalicə həkiminin nəzarəti altında keçirilməlidir.

**İstifadə qaydası və dozası**
Xəstəliyin gedişinin xüsusiyyətlərindən və ağırlığındn asılı olaraq preparat 5-10 gün ərzində hər gün və ya günaşırı 2ml dozadan vena daxilinə (nadir hallarda) və ya əzələ daxilinə yeridilir.

**Əlavə təsirləri**
Tək-tək hallarda hiperhəssaslıq reaksiyaları əmələ gələ bilər (dəri səpgiləri, tənəffüs pozğunluqları, Kvinke ödemi).

**Doza həddinin aşılmsı**
Məlumat yoxdur.

**Buraxılış forması**
2ml-lik inyeksiya üçün məhlul, ampullarda. 10 ampul konturlu-yuvalı qablaşdırmalarda içlik vərəqəsi ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlama şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, quru, qaranlıq və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Apteklərdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı**
"TROGE Medical GmbH", Almaniya